## TARİX VƏ ANTROPOLOGİYA

https://doi.org/10.59849/3006-1342.2024.2.3
UOT 94(479.24)

*N.A.Rəsulova*
*Gəncə Dövlət Universiteti,*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Gəncə ş., H.Əliyev pr., 419*
*E-mail: nararasulova@bk.ru*
https://orcid.org/0009-0003-8622-5605

# GƏNCƏ AZƏRBAYCAN MİLLİ-AZADLIQ HƏRƏKATININ MƏRKƏZİ VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PAYTAXTI KİMİ

*Azərbaycan milli hərəkatının, milli dövlətçiliyin, bütövlükdə azərbaycançılıq ideyasının təşəkkül tapmasında və inkişafında Gəncə şəhərinin, onun ictimai-siyasi mühitinin böyük təsiri olmuşdur. XX əsrin əvvəllərindən azərbaycanlıların ictimai və siyasi təşkilatlarının yaradılması da məhz Gəncədə (Yelizavetpolda) başlamışdı. Azərbaycanlıların ilk ictimai təşkilatı 1891-ci ildə Gəncədə yaradılmış Yelizavetpol üç sinifli məktəbin şagirdlərinə yardım cəmiyyəti oldu. Daha sonra Gəncədə rus-yapon müharibəsi ərəfəsində Xudadatbəy Rəfibəylinin başçılığı ilə tibb cəmiyyəti yaradıldı. 1906-cı ildə isə Adilxan Ziyadxanov tərəfindən geniş əhali təbəqələrinin ictimai fəaliyyətə cəlb edilməsində böyük rol oynayan Xeyriyyə Cəmiyyəti yaradıldı. 1905-ci ilin yazında Gəncədə "Difai" adlanan təşkilat yaradıldı. Təşkilatın yaranması Gəncənin milli-azadlıq hərəkatının mərkəzinə çevrilməsi demək idi və bu statusunu şəhər gələcəkdə də qorumuş olacaqdı. Fevral burjua inqilabından sonra Gəncədə Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında yaradılan "Türk ədəmi-mərkəziyyət firqəsi" bir növ "Difai"nin davamı idi. Rus və ermənilərin şəhərin istər iqtisadi, istərsə də siyasi həyatında ciddi mövqeyə malik olduqları Bakıdan fərqli olaraq Gəncədə təşəkkül tapmış Müsəlman Milli Şurası Azərbaycan milli - azadlıq hərəkatının mərkəzinə çevrildi.*

*Açar sözlər:* Gəncə, milli məfkurə,təşkilatlanma, Azərbaycan Xalq Cümhuriyyəti, paytaxt, üsyan

*Giriş*

Azərbaycan milli hərəkatının, milli dövlətçiliyin, bütövlükdə azərbaycançılıq ideyasının təşəkkül tapmasında və inkişafında Gəncə şəhərinin, onun ictimai-siyasi mühitinin böyük təsiri olmuşdur. Azərbaycan müstəqilliyinə düşmən olan qüvvələrin Gəncəni "musavat yuvası", "millətçi ocağı", "pantürkistlər mərkəzi" və s. epitetlərlə adlandırmaları Gəncənin milli hərəkatın formalaşmasında nə qədər mühüm rol oynadığının sübutudur. Milli ənənələr beşiyi olan Gəncə Azərbaycanın müstəqillik tarixinə misilsiz səhifələr yazmaqla yanaşı, Cümhuriyyət düşmənlərinə qarşi müqavimətilə də seçilib. Həmçinin, dünyadakı mürəkkəb təlatümlər içində qura bildiyimiz, lakin işğala məruz qalan Cümhuriyyətimiz üçün başlanğıcında olduğu kimi, sonunda da Gəncə idi.

**1. Gəncə azərbaycanlıların ilk ictimai-siyasi təçkilatlarının mərkəzi kimi.**

XIX və XX əsrlər ərzində Azərbaycanda sənayenin sürətlə inkişafı Azərbaycan cəmiyyətində milli burjuaziyanın və yeni milli ziyalı təbəqələrinin təşəkkülünə səbəb oldu və Azərbaycanda ictimai-siyasi fəallığın artmasına gətirib çıxardı. Gəncədə fəaliyyət göstərən Azərbaycan ziyalıları və milli Azərbaycan burjuaziyasının nümayəndələri Bakıdan fərqli

olaraq, erməni və rus burjuaziyasının və ziyalılarının rəqabətindən azad olduqları üçün XX əsrin əvvəllərindən azərbaycanlıların ictimai və siyasi təşkilatlarının yaradılması da məhz Gəncədə (Yelizavetpolda) başlamışdı [4, s. 13]. Azərbaycanlıların ilk ictimai təşkilatı 1891-ci ildə Gəncədə yaradılmış Yelizavetpol üç sinifli məktəbin şagirdlərinə yardım cəmiyyəti oldu. Daha sonra Gəncədə rus-yapon müharibəsi ərəfəsində Xudadatbəy Rəfibəylinin başçılığı ilə tibb cəmiyyəti yaradıldı. 1906-cı ildə isə Adilxan Ziyadxanov tərəfindən geniş əhali təbəqələrinin ictimai fəaliyyətə cəlb edilməsində böyük rol oynayan Xeyriyyə Cəmiyyəti yaradıldı [16, s. 38].

XX əsrin birinci rübündə Rusiya İmperiyası inqilabi təlatümlər dövrünə qədəm qoyarkən, xalqın taleyini düşünən və bu məqsədlə milli təşkilatlanma zərurətini anlayan Azərbaycan liderləri milli-siyasi tariximizin başlanğıc nöqtəsi sayıla bilən bir aktı gerçəkləşdirdilər. Tanınmış amerikalı alim Tadeuş Svyatoxovski (1932 - 2016) bu haqda yazır: “Daşnakların ali təşkilatlarının olmasına cavab olaraq, ayrı-ayrılıqda mübarizə aparan müsəlman qrupları öz fəaliyyətlərini koordinasiya etməyə başladılar... “Difai” adlanan bu təşkilat 1905-ci ilin yazında Gəncədə, bununla öz siyasi karyeralarını müəyyən etmiş buradakı tanınan adamların - Şəfi Rüstəmbəyovun, Ələkbər və Xəlil Xasməmmədovların, İsmayıl Ziyadxanovun, Nəsib Yusifbəylinin və doktor Həsən Ağayevin təşəbbüsü ilə yaradıldı. Bakıdan onlara Əhməd Ağayev də qoşuldu. Təşkilatın yaranması Gəncənin milli-azadlıq hərəkatının mərkəzinə çevrilməsi demək idi və bu statusunu şəhər gələcəkdə də qorumuş olacaqdı” [19, s. 42]. Müəllif, həmçinin, “Difai”yə qədər 1905-ci ildə Gəncədə Rəfi bəy Rüstəmbəyov tərəfindən “Qeyrət” adlı milli təşkilatın yaradıldığını da qeyd edir. 1912-ci ilədək fəaliyyət göstərən partiya haqqında tarixi ədəbiyyatda ətraflı məlumat yoxdur [6, s. 76].

**2. Milli məfkurənin formalaşmasında Gəncənin rolu.**

XX əsrin əvvəllərində Rusiya imperiyasının bürüyən siyasi və iqtisadi böhranlar, etnik toqquşmalar Azərbaycandan da yan keçmədi. “Daşnak” partiyasının xülyalarından havalanan erməni nankorları Azərbaycan türklərinə qarşı milli ədavət törədəndə elin mərd oğulları özünümüdafiə dəstələri yaradaraq düşmənə layiqli cavab verməyə başladılar. Belə bir çətin dövrdə Azərbaycanın qabaqcıl xadimləri milli maraqların müdafiəsi üçün “Difai” təşkilatını yaratdılar. Məhz bu addım bizim milli-siyasi tariximizin dönüş nöqtəsi oldu. Müdafiə mənası verən “Difai”nin rəmzi kimi Gəncənin Rəfibəylilər nəslinin nişanı qəbul edilmişdi [12, s. 13]. Sonralar da “Difai”nin ən geniş fəaliyyət göstərdiyi məkan Gəncə və onun quberniyası oldu. T.Svyatoxovski yazır: “Tatar-erməni müharibəsində yaranaraq, “Difai” özünün əsasən antirusiya fəaliyyəti ilə Şamilin dövründən bəri heç bir təşkilatlanmış müqavimət görməyən bir ölkədə, çar rejiminə çoxillik dilsiz-ağızsız itaəti çatlatmış oldu” [18, s. 21]. Beləcə, millətin fiziki müdafiəsindən başlayaraq azad yaşama ideyasına gətirən, “Difai”dən “Ədəmi-mərkəziyyət”əcən keçən bu yol Cümhuriyyətin qurulmasına aparırdı.

I Dünya müharibəsi başlandıqdan sonra Azərbaycanın siyasi liderləri dünyada və regionda baş verəcək siyasi proseslərin Azərbaycana da dəlalət edəcəyini başa düşərək öz fəaliyyətlərini genişləndirirdilər. Əsasən keçmiş difailərdən ibarət xadimlər Gəncə Milli Komitəsini yaratdılar. Mənbələrə istinad etdikdə, Gəncə Milli Komitəsinin ən azı müharibənin ilk aylarından yaradıldığı aydınlaşır. Nağı bəy Şeyxzamanlı özünün “İstiqlal mücadiləsi xatirələri”ndə Milli Komitənin 14 nəfər üzvü olduğunu və idarə heyətinə Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyini yazır [16, s. 38]. Vəziyyətin gərginliyini nəzərə alan Gəncə Milli Komitəsi öz silahlı dəstələrini də yaratmışdı. Hərbçilər əsasən I Dünya müharibəsində “Dikaya diviziya”nın tərkibində döyüşmüş və tərxis olunmuş zabitlər idilər. Gəncə Milli Müsəlman Komitəsinin fəaliyyəti dövründə şəhərdəki hərbi rus birləşmələri Gəncəni tərk etmək məcburiyyətində qalmışdı. Şəhərin erməni təcavüzünə imkan verilmədi. 1918-ci il iyunun 17-də yeni hökumət kabinetinin tərkibinə qatılmaqla komitə öz fəaliyyətini

bitmiş hesab etdi. Gəncə Milli Komitəsinə məxsus ərzaq anbarları, idarə binaları və bank hesabları Azərbaycan Xalq Cümhiriyyətinin hesabına keçirildi [9, s. 67]. Gəncədə kommunist təşkilatlarının özəkləri demək olar ki, yox dərəcəsində idi. Lavrenti Beriyanın dili ilə desək "Bakı bolşevizmin alınmaz qalasına, Gəncə isə əksinqilabçılar yuvasına çevrilmişdi" [7, 35-36].

Şübhəsiz, millətin fiziki müdafiəsi ilə yaranmış "Difai"dən və milli özünüdərkin möhkəmlənməsi üçün təcrübə qazandırmış Gəncə Milli Komitəsindən sonra siyasi təkamülün yeni mərhələsi zərurəti yarandı.

Fevral burjua inqilabından sonra "Musavat" açıq fəaliyyətə keçdi. Rusiyada monarxiya üsul-idarəsi devrildikdən az sonra Gəncədə Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında türk federsalist partiyası olan "Türk ədəmi-mərkəziyyət firqəsi" yaradılır [20, s. 22]. Bu partiya bir növ "Difai"nin davamı idi. Gəncənin bir sıra siyasi xadimləri Azərbaycan tarixində ilk dəfə olaraq Azərbaycan dövlətçiliyinin bərpası ideyası ilə çıxış edən bu partiyanın tərkibinə daxil oldular.

"Türk Ədəmi-Mərkəziyyət firqəsi" öz məqsədləri və proqramı ilə xalqı tanış etmək üçün 1917-ci ilin martında, Novruz bayramı günü Gəncənin Şah Abbas məscidinin önündə keçirdiyi izdihamlı mitinqdə partiyanın lideri N.Yusifbəyli nitq söyləmiş, ilk dəfə olaraq Azərbaycan anlayışı siyasi mənada işlədilərək "Yaşasın Azərbaycan muxtariyyəti!, Yaşasın Demokratik Respublika!, Yaşasın Türk Ədəmi-mərkəziyyət partiyası!" şüarları səslənmişdi [15].

Milli azadlıq hərəkatının fədaisi, Cümhuriyyətin görkəmli xadimlərindən olan M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan ideyasını siyasi bir mətləb şəklində formulə etmək şərəfi Nəsib bəyindir. O, milli Azərbaycan demokratiyasının yetişdirdiyi elə bir müməssildir (nümayəndə) ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun adı ilə bağlıdır" [18].

Gəncədən fərqli olaraq Bakıda rus və ermənilər şəhərin istər iqtisadi, istərsə də siyasi həyatında ciddi mövqelərə malik idilər, erməni və rus burjuaziyası Bakıda bütün idarəçilik strukturlarına nəzarət edirdi. Belə olan şəraitdə 1917-ci il mart ayının 16-da Yelizavetpolda təşəkkül tapmış Müsəlman Milli Şurası Azərbaycan milli - azadlıq hərəkatının mərkəzinə çevrildi [13, s. 53]. Müsavat partiyasının Şərq bürosunun sədri Nəsib bəy Yusifbəyli partiyanın Yelizavetpol Müsəlman Milli Şurasının sədri seçildi. Şuranın tərkibinə Nəsib bəy Yusifbəyli, Adilxan və İsmayılxan Ziyadxanovlar və Xudadatbəy Rəfibəyov kimi dövrün görkəmli ictimai və siyasi xadimləri daxil idilər.

1917-ci il oktyabr çevrilişindən sonra yaranmış siyasi şəraiti Cənubi Qafqazda erməni dövlətinin yaradılması üçün əlverişli hesab edən Daşnaksütyun partiyası Rusiya ordusu tərkibində erməni milli hissələrinə arxalanaraq İrəvan quberniyası və Qarabağın dağlıq ərazilərində azərbaycanlıların soyqırımını həyata keçirdiyi bir vaxtda, yaranmış şərait Azərbaycan milli hərbi qüvvələrinin təşkilinin sürətləndirilməsini tələb edirdi. Beləliklə, də Gəncə şəhərində milli özünümüdafiə dəstələrinin yaradılmasına başlanıldı. Bu işə I Rusiya Dövlət Dumasının deputatı, Yelizavetpol milisinin rəisi İsmayılxan Ziyadxanov və Gəncədə ilk tibb cəmiyyətinin banisi Xudadatbəy Rəfibəyov rəhbərlik edirdilər. Onların gərgin fəaliyyəti nəticəsində milli özünümüdafiə dəstələrinin sayı 20 min nəfərə çatdırıldı. 1918-ci ilin yanvarında Şəmkir şəhəri uğrunda gedən döyüşdə İsmayılxan Ziyadxanovun və Xudadatbəy Rəfibəyovun rəhbərlik etdikləri özünümüdafiə dəstələri Qafqaz ordusu hissələrini darmadağın etdilər. Bu qələbə Qafqaz ordusu əsgərlərinin Azərbaycan ərazisinə hücumlarına son qoydu. İsmayıl xanın rəhbərliyi altında Gəncə milisi ciddi hərbi qüvvəyə çevrildi. Gəncə Milli Şurasının rəhbərliyi altında Azərbaycanın Lənkəran, Şamaxı, Quba, Ərəş, Şəki, Cavad, Qazax və Yelizavetpol qəzaları Azərbaycan milli qüvvələri tərəfindən azad edildi [14, s. 89]. Məlum olduğu kimi, 1918-ci il may ayının 26-da Zaqafqaziya Federativ Respublikasının

dağılmasına və yeni dövlətlərin - Azərbaycan, Ermənistan və Gürcüstan Demokratik Respublikalarının yaranmasına səbəb oldu. Azərbaycan Cümhuriyyətinin yaradıcılarından olan M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyəti aləmi-islamda bir türk hökumətidir" [17, s.102].

**3. Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı və bolşevik işğalına dirəniş**

Zaqafqaziya Federasiyası buraxıldıqdan sonra dağılmış Seymin Müsəlman fraksiyası Azərbaycan Milli Şurasında birləşərək, 1918-ci il mayın 28-də yeni milli dövlətin yarandığını elan etdilər. May ayının 30-da Azərbaycan Demokratik Respublikasının yaranması barədə Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin imzaladığı radioteleqram mətninin sonunda hökumətin müvəqqəti olaraq yerləşdiyi yerin Yelizavetpol - Gəncə şəhəri olduğu bildirilirdi. Bakının Bakı Sovetinin işğalı altında olduğu bir vaxtda məhz Gəncə şəhəri Azərbaycanın paytaxtı seçilmişdi. Beləliklə də, Azərbaycan hökuməti və Milli Şura iyun ayının 16-da Gəncəyə köçdü. Bununla da Gəncənin Azərbaycan tarixində yeni dövrü - milli dövlətçilik dövrü başlandı. Cümhuriyyətin düz 3 ayı Gəncədə keçir və bu səbəbdən dövlət strukturlarının formalaşması məhz Gəncənin adı ilə bağlıdır. Cümhuriyyət hökumətinin Gəncə dövrü ərzində 127 qərar qəbul edilmişdi ki, bu qərarlar Cümhuriyyətin sonrakı taleyində mühüm rol oynamışdı. Araşdırmaçı jurnalist Zakir Muradın da dediyi kimi, "Əvvəldə də, sonda da Gəncə" [12]. Belə ki, **milli-siyasi intibahımızın formalaşmasında Azərbaycan milli ruhunun aynası olan Gəncə,** Cümhuriyyət düşmənlərinə qarşi müqavimətilə də seçilib. 1920-ci il Gəncə üsyanı barədə M.Ə.Rəsulzadənin "Cavad xanın Gəncəsi bu üsyanda da zühur edib öz sözünü dedi" fikri bunu təsdiq edir [10, s. 49-50].

Cümhuriyyətin 1920-ci ilin aprelin 28-də bolşeviklər tərəfindən faktiki işğalı təbii ki, milli məfkurə beşiyi Gəncədə yalnız birmənalı qarşılana bilərdi. 1920-ci ilin mayında baş verən Gəncə üsyanının bilavasitə iştirakçısı və aparıcı simalarından biri olan Azərbaycan Ordusunun 3-cü Gəncə piyada alayının komandiri polkovnik Cahangir Kazımbəyli xatirələrində Gəncə üsyanının başlica səbəbi kimi, Azərbaycan xalqının xarakterini göstərməsi çox diqqətçəkəndir. Üsyanın başlama tarixi də təsadüfi deyildi. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasının 2 ili tamam olurdu. Üsyanın təşkilatçıları və hərəkətverici qüvvəsi Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri idi. Üsyanın başlanması və yatırılması tarixlərində diqqəti cəlb edən məqamlar mövcuddur. Bolşeviklərə məxsus sənədlərdə Gəncə üsyanının başlanması 1920-ci il mayın 25-də, üsyanın tam yatırılması isə mayın 31-i kimi göstərilir. Cahangir bəy Kazımbəylinin yazdığı xatirələrdə isə üsyanın 24-də başlanmasını və iyunun 3-dən 4-nə keçən gecə tam məğlub olmasını öz xəttilə yazır və imzasını atır. Eyni zamanda Mərkəzi Dövlət arxivində 267 saylı fondda toplanmış ifadələrdə də üsyanın iyunun 1-dən 2-nə keçən gecə davam etməsi barədə məlumatlar var [21, s. 90-91]. Görünür, XI ordu hissələrinin basılmaz qala olması xülyasını yaratmaq üçün, üsyanın "on iki gün davam etməsi" faktı bolşeviklərin mövqeyinə uyğun deyildi.

Üsyanın başlanmasına səbəb Azərbaycan diviziyasının (1.800 nəfər) komanda heyyətinin XI ordu qərargahından göndərilmiş zabitlərlə əvəz edilməsi oldu. Şəhər komendantı Məmməd Mirzə Qacar vəzifəsindən azad edildi. Hadisələr Azərbaycan ordu hissələrində narazılığı artırdı. Podpolkovnik Cahangir Kazımbəyovun başçılığı ilə 3-cü atıcı alayı üsyana qalxdı. Mayın 26-da üsyana rəhbərlik etmək üçün general Cavad bəy Şıxlinski, Məhəmməd Mirzə Qacar, Cahangir Kazımbəyov və başqalarının daxil olduğu Hərbi Şura yaradıldı. Şəhərin müsəlmanlar yaşayan hissəsi bir həftə ərzində üsyançıların əlində qaldı [8, s. 34]. Gəncə üsyanı başlanan kimi bu üsyanların sovet hakimiyyətinə böyük təhlükə törətdiyini hiss edən XI Ordunun qərargahı bütün hissələrin komandirlərinə gizli sərəncam göndərir... və üsyanın yatırılması üçün təcili tədbirlər görməyə başladı. Qırmızı ordunun 20-

ci, 178-ci və 180-ci alayları şəhərin erməni məhəlləsində, 3-cü briqadanın rabitə taboru və komendant bölməsi isə şəhərin azərbaycanlılar yaşayan məhəlləsində yerləşmişdi. Mayın 25-də Taman süvari briqadasının 2-ci alayı da Gəncəyə gətirildi. Həm Gəncə üsyanının, həm də başqa bölgələrdəki üsyanın qarşısını almaq üçün 1920-ci il mayın 26-da XI ordu komandanlığı 60 №-li dekret, mayın 28-də Qafqaz cəbhəsi komandanı V.Gittis isə xüsusi direktiv imzaladı [3, s. 53]. Bu arada Gürcüstanın bolşeviklərlə sülh sazişi bağladığı və bu səbəbdən artıq bu cəbhədə bir nəfər də olsun qızıl əsgərin qalmadığı xəbəri bəlli olur. Bu Gəncə üsyançıları üçün faciə demək idi. Bu xüsusda mühüm bir məqama diqqət yetirilməlidir: Gəncədəki üsyana təkan verən səbəblərdən biri də bolşeviklərin Azərbaycan ərazisindən Gürcüstana müharibə elan etməsi olmuşdu. Azərbaycan Cümhuriyyətinin Gürcüstanla dostluq və hərbi kömək barədə sazişi var idi. Azərbaycan xalqı öz öhdəliyinə əməl edərək, dostluq sazişində olduğu Gürcüstana qarşı bolşevik təhlükəsinin də qarşısını alırdı. Və təbii ki, gürcülərin də bu sazişə uyğun olaraq Azərbaycandakı üsyançılara kömək edəcəklərinə ümid edilirdi. Nə yazıq ki, belə olmadı. Əksinə, Gürcüstan bolşeviklərlə anlaşdı [1, s. 7].

Mayın 29-da kifayət qədər möhkəmləndirilmiş qırmızı qüvvələrin üsyançılar üzərinə hücumu uğursuzluqla başa çatdı. Belə olduqda Qırmızı ordu komandanlığı Gəncəyə əlavə qüvvələr gətirməyi qərarlaşdırdı. Bakıdakı zirehli avtodivizion Gəncəyə gətirildi. Üstəlik mayın 29-da yağan leysan yağışlar hər iki tərəfdə vəziyyəti xeyli çətinləşdirdi. Şahidlərin verdiyi məlumatlardan aydın olur ki, aramsız yağışlar nəticəsində Dram teatrın qarşısındakı körpü azğınlaşmış sellərin altındaymış. Mayın 31-də hücumun bütün istiqamətlərdən gücləndirilməsi, çoxlu sayda topların və zirehli avtomobillərin işə salınması şəhərdə son dərəcə böyük dağıntılara səbəb oldu. Yalnız bundan sonra üsyançıların müqavimətini qırmaq mümkün oldu. Gəncə üsyanı amansızlıqla yatırıldı. Gəncədə daşnak-sovet qoşunlarının müsəlman əhaliyə qarşı soyqırım siyasəti həyata keçirildi. Müsəlmanlar diri - diri Ozan məscidində yandırıldılar. Milli ordudan və mülki əhalidən 13.000-ə qədər adam həlak oldu [5].

Üsyan yatırıldıqdan sonra Azərbaycan ordusunun 6 generalı, 6 polkovniki, 3 minbaşı, 7 kapitan, onların arasında H. Şıxlinski, general Məmməd Mirzə Həsən Qacar öldürüldü. 76 əsgər və zabit həbs olunaraq Nargin adasına göndərildilər və orada güllələndilər. Gəncədə məskunlaşan ermənilər və silahlı daşnak dəstələri üsyançılara divan tutulmasında ruslara növbəti dəfə "xidmət" göstərdilər [11]. Məğlubiyyətə uğrasa da Ceyhun Hacıbəylinin sözləri ilə desək; "Gəncə üsyanı millətimizin şərəf və namusunun yenidən qəsbi-etibar qazandığı bir dastandır".

## *Nəticə*

1917-ci il oktyabr çevrilişindən sonra ermnəilərin yaranmış siyasi şəraitdən məkrli istifadə edərək Azərbaycan türklərinin soyqırımını həyata keçirdikləri vaxtda Gəncə şəhərində milli özünümüdafiə dəstələrinin yaradılmasına başlanıldı. 1918-ci il mayın 28-də yarandığı elan edilən, Rəsulzadənin təbirincə desək, "aləmi-islamda bir türk hökuməti" olan Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı da məhz Gəncə şəhəri oldu. Bununla da Gəncənin Azərbaycan tarixində yeni dövrü - milli dövlətçilik dövrü başlandı. Cümhuriyyətin düz 3 ayı Gəncədə keçir və bu səbəbdən dövlət strukturlarının formalaşması məhz Gəncənin adı ilə bağlıdır. Cümhuriyyət hökumətinin Gəncə dövrü ərzində 127 qərar qəbul edilmişdi ki, bu qərarlar Cümhuriyyətin sonrakı taleyində mühüm rol oynamışdı. Cümhuriyyətin 1920-ci ilin aprelin 28-də bolşeviklər tərəfindən faktiki işğalı 1920-ci ilin mayında Gəncə üsyanının baş verməsinə səbəb oldu.Üsyan yatırılsa da, millətimizin şərəf və namusunun yenidən etibar qazandığı bir dastana çevrildi.

ƏDƏBİYYAT

1. Altunbay A. "Azadlığa uçan türk". Bakı, 1994.
2. Bağırov T. "Gəncə üsyanmı, qiyammı". "Ayna" qəzeti, 20.IX. 1997.
3. Bayramov Xanlar. Gəncə üsyanı - 1920(sənədlər və materiallar). Bakı, 2010.
4. Багирова И. Политические партии и организации Азербайджана в нач. XX в Баку, 1997.
5. Cəfərli M. "Gəncə üsyanının rəhbəri". "Ekspress" qəzeti, 30.01.2001.
6. Əmrahov Mais. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Bakı, 2009.
7. Əlizadə N. Azərbaycanda sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə tarixindən. Bakı, 1974.
8. Əhmədov F. "Gəncənin tarix yaddaşı". Bakı, 1998.
9. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1982.
10. İsayev Ə. "Gəncə və gəncəlilər". Bakı, 2005.
11. Murad Z. "Gəncə üsyanı – 85". "Gəncəbasar" qəzeti, 12 mart 2005.
12. Muradov Zakir. Cümhuriyyətin proloqu və epiloqu - Gəncə. 525-ci qəzet. 05.06.2018.
13. Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
14. Musayev İ. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət (1917-1920). Bakı, 1992.
15. Nəsibzadə N. "Gəncə üsyanı", "Azərbaycan" qəzeti, 07.XII.1990.
16. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
17. Yaqublu N. Azərbaycan Milli istiqlal mübarizəsi və Məmmədəmin Rəsulzadə. Bakı, 2001.
18. M.Ə.Rəsulzadə "İstila qurbanları. Yusifbəyli Nəsib bəy", "Odlu yurd" №3, 27 aprel, 1929. Ankara; Həmçinin bax: həmin yazı "Ədəbiyyat" qəzeti, 22 fevral, 1991.
19. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
20. Svyatoxovski T. Rusiya Azərbaycanı. (1905-1920-ci illər). "Azərbaycan" jurnalı. Bakı, 1989, № 11.
21. Там, где лилась кровь. Госархив г. Гянджи. Дело 84, с. 102.

УДК 94(479.24)

*Н.А.Расулова*
*Гянджинский Государственный Университет,*
*Институт Страноведения Гянджинского Отделения НАНА*

## ГЯНДЖА КАК ЦЕНТР АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНАЯ ДВИЖЕНИЯ И СТОЛИЦА АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ

*РЕЗЮМЕ*

*Ключевые слова:* Гянджа, национальная идеология, организация, Азербайджанская Демократическая Республика, столица, восстание

Город Гянджа и его общественно-политическая среда оказали большое влияние на формирование и развитие азербайджанского национального движения, национальной государственности, идеи азербайджанства в целом. С начала 20 века в Гяндже (Елизаветполе) началось создание общественно-политических организаций азербайджанцев. Первой общественной организацией азербайджанцев было созданное в Гяндже в 1891 году Елизаветпольское общество помощи учащимся трехклассной

школы. Позже, накануне русско-японской войны, в Гяндже было создано медицинское общество под руководством Худадатбека Рафибейли. В 1906 году Адильхан Зиядханов основал Благотворительное общество, сыгравшее большую роль в вовлечении широких слоев населения в общественную деятельность. Весной 1905 года в Гяндже была создана организация под названием «Дифайи». Создание организации означало, что Гянджа стала центром национально-освободительного движения, и этот статус город сохранит и в дальнейшем». В отличие от Баку, где русские и армяне занимают серьезное положение в экономической и политической жизни города, созданный в Гяндже Мусульманский национальный совет стал центром национально-освободительного движения Азербайджана.

UDC 94(479.24)

*N.A.Rasulova*
*Ganja State University,*
*Institute of Regional Studies of Ganja Branch of ANAS*

## GANJA AS THE CENTER OF THE AZERBAIJAN NATIONAL LIBERATION MOVEMENT AND THE CAPITAL OF THE AZERBAIJAN PEOPLE'S REPUBLIC

*SUMMARY*

*Key words:* Ganja, national ideology, organization, Azerbaijan Democratic Republic, capital, uprising

The city of Ganja and its socio-political environment had a great influence on the formation and development of the Azerbaijani national movement, national statehood, and the idea of Azerbaijanism in general. Since the beginning of the 20th century, the creation of socio-political organizations of Azerbaijanis began in Ganja (Elizavetpol). The first public organization of Azerbaijanis was the Elizavetpol Society for Aid to Three-Class School Students, created in Ganja in 1891. Later, on the eve of the Russian-Japanese War, a medical society was created in Ganja under the leadership of Khudadatbek Rafibeyli. In 1906, Adilkhan Ziyadkhanov founded the Charitable Society, which played a major role in involving large sections of the population in social activities. In the spring of 1905, an organization called “Difai” was created in Ganja. The creation of the organization meant that Ganja became the center of the national liberation movement, and the city will retain this status in the future.” Unlike Baku, where Russians and Armenians occupy a serious position in the economic and political life of the city, the Muslim National Council created in Ganja became the center of the national liberation movement of Azerbaijan.

***Daxil oldu: 16.09.2024-cü il***